*Ötən il sentyabrın 29-da BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə baş tutan "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Milli Şəhərsalma Forumunda məlumat verilib ki, Ermənistan tərəfindən işğal altında olmuş torpaqlarda vandal siyasəti həyata keçirilib, bütün yaşayış və inzibati binalar talan edilərək dağıdılıb. Ərazidə olan 67 məsciddən 65-i məhv edilib, ikisi isə yarıdağılmış vəziyyətdə olub.*



# Dostluğun, birgə maraqların və əməkdaşlığın təzahürü

## Zəngilanda 2023-cü il sentyabrın 29-da 2-ci Azərbaycan Milli Şəhərsalma Forumu keçirilib



Zəngilan rayonunda keçirilən 2-ci Milli Şəhərsalma Forumunda (NUFA2) işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-yenidənqurma və təşkil olunan tədbirin bu prosesdə əhəmiyyəti xüsusilə vurğulanıb.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev bir il əvvəl Ağdam şəhərində 1-ci Forumun uğurla təşkil edildiyini diqqətə çatdırıb. Həmin foruma 44 ölkədən 130-dan çox nümayəndə qatılmışdı. 2-ci forumda isə ümumilikdə 53 ölkədən 200-ə yaxın xarici qonağın iştirak etməsi dövründə tamamilə dağıdılmış əraziləri yenidən inşa etmək üçün dostluğun, birgə marağın təzahürü kimi dəyərləndirilib.

Tədbirdə xüsusilə vurğulanıb ki, Qarabağ və Şərqi Zəngəzur yenidən inşa olunur. Artıq keçmiş məcburi köçkünlərin dönüşü ilə Zəngilanın Ağalı "ağıllı" kəndinə həyatın qayıtdığı, orada sakinlərin xoşbəxt yaşadığı bildirilib.

Qeyd edək ki, "ağıllı kənd" dayanıqlı inkişafın təmin olunması məqsədilə sosial-iqtisadi xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, informasiya texnologiyalarının və innovasiyaların tətbiq edilməsi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunması üçün zəruri infrastruktura malikdir.

"Ağıllı kənd" layihəsində yüksəkkeyfiyyətli ekoloji mühit əsas götürülüb və enerjidən səmərəli istifadə məqsədilə dayanıqlı enerji mənbələrinə üstünlük verilib. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiya"lar tətbiq edilib.

Qeyd edək ki, 200 ailənin yaşadığı kəndin enerji təhlükəsizliyinin dayanıqlığının təmin edilməsi üçün Həkəri çayı üzərində hər biri 212 kVt olmaqla 3 hidravlik turbindən və müvafiq hissələrdən ibarət Arximed Turbini tipli su elektrik stansiyası quraşdırılıb. Stansiyanın qoyuluş gücü 636 kVt-dır. Əlavə olaraq, inzibati binaların üzərində qoyuluş gücü 325 kVt olan fotovoltaik günəş panelləri quraşdırılıb.

İsidilmə xərclərinin və istixana qazlarının emissiyasını azaltmaq məqsədilə evlərdə kombinə edilmiş istilik sistemi, odun və briket ilə işləyən mətbəx sobası və yüksək səmərəli elektrod boyler yerləşdirilib.

Kənddə hər bir evdə suyun isidilməsi üçün kollektorlardan geniş və rahat şəkildə istifadə olunur. Bununla yanaşı, kənddə çirkab suların bioloji emal prosesi ilə təmizlənməsi sayəsində ildə 41.000 kubmetr texniki su əldə edilir.

Kənddə yüksək sürətli (GPON (Gigabit Passive Optical Network - Gigabit tutumlu Passiv Optik Şəbəkə) internet şəbəkəsi mövcuddur. Bu texnologiya vasitəsilə sürətli internet, telefon və İP TV xidmətləri təmin edilir. Əlavə olaraq, ərazidə ağıllı video müşahidə kameraları, LCD məlumat lövhələri, audio məlumatlandırıcı anons sistemi, Wi-Fi və avtomatik meteo müşahidə stansiyası olan çoxfunksiyalı işıq dirəkləri mövcuddur.

Əhalinin sosial rifahının rahat və yüksək səviyyədə təmin edilməsi üçün informasiya-kommunikasiya texnologiyalarından maksimum istifadə olunur və e-səhiyyə, e-təhsil və digər elektron xidmətlər üzrə innovativ həllər tətbiq edilib.

Qeyd edək ki, Ağalı kəndi 119 hektar ərazidə salınıb. Kənddə yaşayan sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb. Sakinlər həm də öz həyətyanı sahələrində meyvə-tərəvəz yetişdirirlər. Kənddə poçt, rabitə və bank xidmətləri də yüksək səviyyədə göstərilir. Orta məktəbdə və




uşaq bağçasında müasir səviyyədə normal şərait yaradılıb.

Ağalı kəndində inşa edilən "Ağalı" hoteli üç mərtəbədən ibarətdir.

Hotelin birinci mərtəbəsində qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Foyenin sağ və sol hissələrində restoranlar fəaliyyət göstərəcək. Birinci mərtəbənin sağ qanadında 60 nəfərlik tədbir otağı, həmçinin işgüzar görüşlər üçün 20 nəfərlik iclas zalı mövcuddur. Qonaqların qarşılanması üçün tədbir zalı və 76 nəfərlik restoran var.

Hotelin ikinci və üçüncü mərtəbələri eynitipli otaqlardan ibarətdir. Hər mərtəbədə 39 otaq var. Həmçinin hotelin hər mərtəbəsində fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş otaqlar var. "Ağalı" hotelinin zirzəmi hissəsində qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes mərkəzi yaradılıb.

Azərbaycanın bu işləri öz vəsaiti hesabına həyata keçirdiyini, heç bir maliyyə yardımı almadığını qeyd edən dövlətimizin başçısı işğaldan azad olunan ərazilərdə Özbəkistanın orta məktəb, Qazaxıstanın isə yaradıcılıq mərkəzi inşa etdiyini xatırladıb.

Azad olunan ərazilərimizdə yeni infrastruktur layihələri çox geniş miqyas alıb. Artıq 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin içində 45 tunel nəzərdə tutulur və bu tunellərin uzunluğu 70 kilometrdir. Dəmir yolları, iki beynəlxalq hava limanı və üç il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilib və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Görülən bu işləri yüksək dəyərləndirən dövlətimizin başçısı qeyd edib ki, bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, - həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə.

Qeyd edək ki, üç gün ərzində müxtəlif mövzuların müzakirə edildiyi Forumun işğaldan sonra qısa vaxt ərzində Zəngilanda inşa edilən Konqres Mərkəzində keçirilməsində məqsəd dayanıqlı şəhər inkişafı üçün bilik mübadiləsini, siyasətin formalaşdırılmasını, ictimaiyyətin cəlb edilməsini, bacarıqların artırılmasını, əməkdaşlığı və icra strategiyalarını təşviq etmək olub.

**Mikayıl NƏRİMANOĞLU,**
**"Respublika".**